*Firudin bəy Köçərli – 160*

# Məhkəməsiz və şahidsiz güllələnən millət fədaisi

**Həqiqi istedad heç vaxt birtərəfli olmur, sevgi və zəhmət onu çoxşaxəli edir. Və bu istedad alovlu ürəklə mənsub olduğu millətin tərəqqisinə xidmət edəndə şüurlarda inqilab baş verir. Firudin bəy Köçərli Danko ürəkli belə maarifçi fədailərimizdən olub.**

XIX əsrin sonları, XX əsrin əvvəllərində yazıb-yaradan ziyalılarımızın əksəriyyəti kimi, Firudin bəy Köçərli də bu meydana M.F.Axundzadə və H.B.Zərdabinin maarifçilik ideyalarını mənimsəyərək gəlir, onların başladıqları işin davamçısına, daha sonra isə lokomotivinə çevrilir.



**1863-cü il yanvarın 26-da Şuşa şəhərində anadan olub. 1872–1876-cı illərdə Mirzə Kərim Münşinin mədrəsəsində təhsil alıb. 1878-ci ildə tanınmış maarifpərvər Aleksey Çernyayevski 15 yaşlı Firidunu Qoriyə aparıb. 1879–1885-ci illərdə Zaqafqaziya müəllimlər seminariyasında təhsil alıb.**

## Böyük yolun yolçusu olmaq istəyi

Elm və təhsil Firudin bəy üçün sadəcə, məslək məsələsi olmayıb, həm də və ən əsası, xalqı maarifləndirməyin, onu qabaqcıl millətlərin sırasına çıxarmağın yeganə düzgün yolu idi. O, bu yolu böyük fədakarlıqla keçdi, desək, azdır, Firudin bəy bu yolda özünü Vətəninə və canından çox sevdiyi millətinə fəda etdi. Hələlik bu yolun başlanğıcında olan F.B.Köçərli 1885-ci ildə müəllimlər seminariyasını bitirib, İrəvan gimnaziyasına təyinat alır. 1890-cı ilədək burada ana dili, hüsnxətt fənlərini tədris edir, pansion mürəbbisinin köməkçisi işləyir. Pedaqoji sahədə uğurlarına görə ona "Kollecski sekretar", "Titulyar sovetnik" və "Statski sovetnik" rütbələri verilir. Yenidən İrəvan gimnaziyasına dönən pedaqoq 1895-ci ildə bu şəhəri tərk edir. Çünki o, bu "dar meydanda" artıq qərar tuta bilmir, millətin övladlarına daha böyük auditoriyada elm öyrətməyi hədəfləyirdi. Sonradan həyat amalına çevriləcək bu həvəsi onu məzunu olduğu Qori Müəllimlər Seminariyasına gətirir. "Tatar şöbəsi"nin Azərbaycan dili və şəriət müəllimi kimi 1918-ci ilə qədər burada çalışır. Bu mühitdə xüsusi istedadı, savadı ilə seçilən gənc Firudin ədəbi prosesi də yaxından izləyir, klassik şairlər haqqında məlumatlar toplayır, biliyini zənginləşdirirdi. Məhz bu dövrdən etibarən Firudin bəyin elmi-pedaqoji və ədəbi-ictimai fəaliyyətinin keyfiyyətcə yeni mərhələsi başlayır.

## Ədəbiyyatşünas və istedadlı tərcüməçi

Hələ Qori müəllimlər seminariyasında təhsil alarkən o, ilk məqaləsini – "Təlimi-Sokrat" əsərini yazıb. 1889-cu ildə İrəvanda "Müsyö Jordan və dərviş Məstəli şah" komediyasını tamaşaya qoyub. Təhsilin, elmin, incəsənətin bir çox sahələrində yazıb-yaradan, titanik enerji ilə çalışan cəfakeş pedaqoqun tərcüməçiliyi də mükəmməl idi. 1892-ci ildə A.S.Puşkindən tərcümə etdiyi "Təknə və balıq" mənzum nağılı İrəvanda, M.Y.Lermontovun "Üç xurma ağacı" və A.Koltsovun "A kişi, niyə yatıbsan?" şeirlərinin tərcüməsindən ibarət ikinci kitabı Şuşada çap olunub. "Tatar komediyaları" adlı ilk elmi məqaləsi "Novoye obozreniye" qəzetində, "Ərəb əlifbası və onun qüsurları" məqaləsi isə "Qafqaz" qəzetində işıq üzü görür. 1903-cü ildə M.F.Axundovun "Aldanmış kəvakib" povestini rus dilinə, bir il sonra A.P.Çexovun "At familiyası" hekayəsini ana dilimizə çevirir və "Şərqi-Rus" qəzetində dərc etdirir. 1918-ci ildə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsini öz xərcinə Qazax şəhərinə köçürən, buraya direktor təyin olunan F.b.Köçərli az sonra Qazaxda ilk uşaq evinin də açılmasına nail olur.



## Ədəbi tənqidimizdə yeni cığır

Özünün bütün şüurlu həyatını, birinci növbədə, azyaşlılar üçün faydalı dərs vəsaitləri, ədəbiyyat nümunələri hazırlamağa həsr edən F.b.Köçərlinin 1912-ci ildə uşaqlar üçün yazdığı "Balalara hədiyyə" kitabı Bakıda "Kaspi" mətbəəsində işıq üzü görür. Millətinin gələcəyini onun fidanlarının mükəmməl təhsil almasında görən elm fədaisinin həmin kitabı 1967, 1972 və 2013-cü illərdə təkrar çap olunub.

Firudin bəy Köçərli ədəbiyyatşünaslığa dair 20 illik gərgin zəhmətin bəhrəsi olan trilogiyanı – "Azərbaycan ədəbiyyatı tarixi" adlı üç cildlik əsərini 1913-cü ildə tamamlayır. Bu, böyük maarifpərvərin həm də milli ədəbi tənqidşünaslığımızda açdığı yeni cığır idi. Ölümündən 5 il sonra "Azərbaycan ədəbiyyatı tarixi materialları" kitabının I hissəsi, 1926-cı ildə isə II hissəsi çap edilib.

## "Şahidlər dindirilmədən güllələnsin!"

Nə yazıqlar ki, AXC-nın süqutu millətimizin bir çox aydınları kimi, Firudin bəyin də böyük arzularını gözündə qoyur. 1920-ci ilin aprelindəki "qırmızı çevrilişdən" az sonra Firudin bəy Köçərlini Qazax İnqilab Komitəsi həbs edir. Gəncə Fövqəladə Komissiyasında müsavatçı olduğuna görə ona "əksinqilabçı" və "millətçi" damğası vurulur. Guya o, AXC dövründə səlahiyyətlərindən istifadə edib xalqı aldadıb, yoxsulların torpağını zorla mənimsəyib, milli nifaq törədib. Bu ittihamları rədd etsə də, Gəncə Fövqəladə Komissiyası Firudin bəyi ölüm cəzasına məhkum edir və bir şahid belə dindirilmədən, 1920-ci il iyun ayının 5-də güllələyir...

## İrsi ölümündən 37 il sonra araşdırıldı

O dövrün "ən tutarlı bəhanəsi" sayılan AXC ilə yaxınlığına görə, Firudin bəy Köçərlininin irsinin araşdırılması sovet dövründə, xüsusən də, Stalinin hakimiyyətdə olduğu müddətdə, demək olar ki, mümkünsüz idi. Amma diktatorun ölümündən sonra gənc alim Bəkir Nəbiyev 1957-ci ildə ilk dəfə o böyük ziyalımızın irsini araşdırır. Daha sonralar ədəbiyyat üzrə akademik elmi dərəcəsinədək yüksələcək B.Nəbiyev bu gərəkli və savab işi layiqincə görür: arxiv materialları toplayır, Firudin bəyin sağ qalan tələbələri ilə görüşür, 1960-cı ildə isə "F.Köçərlinin həyat və yaradıcılığı" mövzusunda namizədlik dissertasiyasını müdafiə edir. Beləliklə, elm, təhsil və ədəbiyyat fədaimiz gec də olsa, layiq olduğu qiyməti almağa başlayır. 1967-ci ildə isə Respublika Uşaq Kitabxanasına Firudin bəy Köçərlinin adı verilir.

Düşündük ki, xalqımızın milli və ədəbi yaddaşında əbədi yaşayacaq böyük maarifpərvərin, dil fədaimizin 160 illiyinə həsr etdiyimiz qeydlərimizi Firudin bəy Köçərlinin ana dilimiz haqqında dediyi bu sözlərlə bitirməyimiz tam yerinə düşər: "Ananın südü bədənin mayəsi olduğu kimi, ananın dili də ruhun qidasıdır. Hər kəs öz anasını və vətənini sevdiyi kimi, ana dilini də sevməlidir".

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***